*Azərbaycan Milli Elmlər Akademiyasi M. Füzuli adına Əlyazmalar Institutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri № 1, 2024*
*Səh. 108-114*
https://doi.org/10.59849/2224-9257.2024.1.108

**KÖNÜL HƏSƏNOVA KAMRAN QIZI**
AMEA İ.Nəsimi adına Dilçilik İnstitutu
AZ1073, Bakı şəhəri, H.Cavid prospekti, 115.
e-poçt: Hasanovaa.konul@mail.ru

# "TİFLİS ƏYALƏTİNİN MÜFƏSSƏL DƏFTƏRİ"NDƏ İŞLƏNƏN TOPONİMLƏRİN STRUKTUR TƏHLİLİ VƏ DERİVATİV İMKANLARI

**XÜLASƏ**

Məqalədə "Tiflis əyalətinin müfəssəl dəftəri"ndə təsadüf olunan topnimlər struktur baxımdan təhlil edilmişdir. Material əsasında dilin törədicilik imkanları, derivativ xüsusiyyətləri nəzərə alınmaqla meydana çıxan ayrı-ayrı morfoloji və sintaktik xüsusiyyətlər nəzərə alınaraq təhlil aparılmalıdır. Tədqiqatın nəticəsinə görə, "Tiflis əyalətinin müfəssəl dəftəri"ndə işlənən toponimlərin bir qismi sadə quruluşa malikdir: Çələb, Çadır, Qılıc, Xan, Yanas, Qərib, Göl, Qala, Şikar, Vəli, Qut, Çinar, Məlik, Şiraz, Dərə, Amir və s. Təhlil olunan materialda strukturca sadə, yalnız bir əsasdan ibarət olan toponimlər nisbətən azdır. "Tiflis əyalətinin müfəssəl dəftəri"ndə işlənən toponimlərin bir qismi tərkibində müxtəlif şəkilçilər olan düzəltmə toponimlərdir: Bəzirxana, Başxana, Quşçu, Dəmirçi, Carçı, Çataqçı, Armudlu, Kəmərli, Çıraqlı və s. Qeyd edək ki, toponimlər sistemində cəm şəkilçisi ilə əmələ gələn coğrafi adlar xüsusi yer tutur və müəyyən çəkiyə malik olması ilə diqqət çəkir. Bəzi şəkilçilər məhsuldarlığı ilə diqqət çəksə də (-lı, -lar, -lıq, -çu), digərləri bir neçə toponimin tərkibində işlənmişdir (-vank, -dink, -laq). Digər qrup toponimlər struktur baxımdan bir vahiddən ibarət olsa da, quruluşca mürəkkəb təbiətə malikdir. Mürəkkəb quruluşa malik toponimlərin tərkibində ikinci element semantik baxımdan ərazi quruluşu, relyef və ya digər məlumat səciyyəli məqamla bağlı olur və bir çox hallarda bir neçə toponimin tərkibində işlənməklə toponimlər qrupunun meydana çıxmasına səbəb olur.

**Açar sözlər:** Tiflis əyalətinin müfəssəl dəftəri, toponimlər, etimologiya, struktur təhlil, derivativ xüsusiyyətlər.

**Ключевые слова:** Подробная тетрадь Тбилисской губернии, топонимы, этимология, структурный анализ, производные признаки.

**Keywords:** Detailed book of Tbilisi province, toponyms, etymology, structural analysis, derivative features.

Toponimlərin quruluşundan bəhs olunduqda, konkret dildə sözün dəyişmə xüsusiyyətləri, dilin törədicilik imkanları, derivativ səciyyəsi nəzərə alınmaqla bu çərçivədə təzahür edən ayrı-ayrı morfoloji və sintaktik xüsusiyyətlər nəzərə alınaraq təhlil aparılmalıdır. Toponimlərin struktur xüsusiyyətlərinin təsnifi daha çox tarixi morfologiya və sintaksis deyil, etimologiya anlayışına yaxın olması ilə də diqqət çəkir. Təsadüfi deyil ki, elmi ədəbiyyatda toponimlərin struktur təsnifatı ilə bağlı müxtəlif yanaşmalar mövcuddur. Sözlərin morfoloji-sintaktik və sözyaratma xüsusiyyətləri, eləcə də bu xüsusiyyətlərin hər ikisinin eyni vaxtda təzahür etməsi (1, s.107-109) toponimlərin formalaşmasında rol oynayan başlıca struktur modellərin müəyyən olunmasını

*Azərbaycan Milli Elmlər Akademiyasi M. Füzuli adına Əlyazmalar Institutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri № 1, 2024*
*Səh. 108-114*
https://doi.org/10.59849/2224-9257.2024.1.108

şərtləndirir. Bu prosesdə qrammatik quruluşun müəyyənləşdirilməsinin böyük linqvistik əhəmiyyəti vardır, çünki "coğrafi adların təhlilinin köməyi ilə bir çox sözlərin etimologiyası, eləcə də dilin sözyaratma imkanları aydınlaşdırılır" (2, s. 173). B.A.Serebrennikovun haqlı olaraq qeyd etdiyi kimi, yer adları digər xüsusi adlardan dəyişikliyə daha az məruz qalır (3, s. 37). Coğrafi adlar çox vaxt danışıq lüğətindən itmiş arxaik elementləri ehtiva edir. Bu baxımdan toponimikanın əsas problemlərindən biri ümumi isimlərlə coğrafi adlar arasındakı əlaqə məsələsidir (4, s. 9).

Toponimin struktur təhlilinin əhəmiyyətinə diqqət yetirməyi təklif edən A.Superanskaya toponim-ismlərin və toponim-sifətlərin ayrıca nəzərdən keçirildiyi təsnifat təqdim edir (5). Müəllif toponimlərin iki əsas struktur tipini fərqləndirir: tək sözdən ibarət olan və mürəkkəb yer adları. "Bir sözdən ibarət olanlar, öz növbəsində, affikslə və affikssiz əmələ gələn sadə və mürəkkəb vahidlərlə, mürəkkəb birləşmələr isə söz birləşmələri və ön hal konstruksiyaları ilə təmsil olunur". Buna uyğun olaraq müəllif ənənəvi olaraq toponimlərin beş struktur tipini ayırd edir: "1) strukturunda toponimik affiks olan affiks toponimləri; 2) toponim əmələ gətirən formantları olmayan affikssiz toponimlər; 3) mürəkkəb toponimlər - iki və ya daha çox əsasdan əmələ gələn birləşmələr; 4) söz birləşmələri – iki və ya daha çox sözdən ibarət toponimlər; 5) ön söz-hal konstruksiyaları - ön sözlü isimlərdən ibarət toponimlər" (6, s.70).

Hər hansı toponimik vahidin strukturunu öyrənmək üçün struktur tədqiqat metodundan istifadə etməyin zəruri olduğunu yazan N.V.Podolskayanın fikrincə, bu metodun köməyi ilə "onomik modellər və onları təşkil edən kök və affikslər müəyyən edilir" (7, s.81). O, toponimlərin əmələ gəlməsinin 7 əsas üsulunu müəyyən edir (8, s.7).

Xüsusi əlamətlərə malik olmaqla, müəyyən bir bölgənin adlarının xüsusiyyətlərini əks etdirən müxtəlif təsnifatların, fikrimizcə, bir çox ümumi cəhətləri olur. Çünki toponimlərin struktur tipləri obyektin tipinə görə bölgüsü kimi məqamlar nəzərə alınmaqla müəyyən edilir. Bu tipli xüsusiyyətlər ərazinin mikrotoponimiyasında xüsusilə özünü büruzə verir. Buna baxmayaraq, müxtəlif tədqiqatçılar tərəfindən toponimlər fərqli şəkildə təsnif edilir. A. M. Selişşev toponimlərin struktur və struktur-qrammatik sistemləşdirilməsindən danışır. Alim şəkilçi, prefiksasiya yolu ilə yaranan coğrafi adları, bu və ya digər cinsin konkret toponimik məna daşıdığı sifətləri, sifətin isimlə birləşmələrindən ibarət mürəkkəb adları, iki ismin birləşməsi, ikinci hissədə "şəhər" elementi olan birləşmələri, rəqəmin isimlə birləşməsi olan halları fərqləndirir (9, s. 82–84).

V. A. Nikonovun fikrincə, "toponimik təsnifatların bütün saysız-hesabsız cəhdlərini uğursuzluğa düçar edən əsas səhvlərdən biri semantik, qrammatik və digər planların qarışdırılmasıdır" (10, s. 17). Bununla bağlı müəllif yazır: "Əsas söz əmələ gətirmə növləri "saf" kök forması, affiksasiya, birləşmə və s.-dir (10, s.17). L.P.Matei bəzi təsnifatları təhlil edərək belə qənaətə gəlir ki, müəyyən struktur tiplərini təhlil edərkən formalaşma üsulu, toponimə daxil olan komponentlərin sayı, semantik və qrammatik

xüsusiyyətlər, coğrafi addakı sözlər arasındakı sintaktik əlaqələr kimi məqamlar hələ də qarışdırılır (11, s. 44–46).

İstənilən bölgənin toponimlər sisteminin tədqiqi linqvistik baxımdan maraq doğurur. Sistemin tədqiqini onun xarakterik toponimik strukturlarını öyrənmədən təsəvvür etmək mümkün deyil. Bu hal onomatoloqları toponimləri struktur xüsusiyyətlərinə görə sistemləşdirməyə vadar edir. Toponimik modellərin və şəkilçilərin müəyyənləşdirilməsi ilə toponimlərin struktur söz yaradıcılığı təhlili sonrakı tədqiqatlar üçün başlıca meyar rolunu oynamışdır. Xüsusən də adın linqvistik mənsubiyyəti, xronologiyası və etimologiyası kimi məsələlər onun strukturunun təhlili ilə müəyyən edilir. Odur ki, toponimlərin öyrənilməsi bəzi dil problemlərini - xalqlar və onların mədəniyyətləri arasında qarşılıqlı əlaqə məsələlərini, eləcə də xalqların etnogenez və etnik tarix problemlərini həll etmək üçün material verir.

Qeyd etdiyimiz kimi, toponimlərin struktur təsnifatı ilə bağlı müxtəlif yanaşmalar mövcuddur. M. T. Muminov qeyd edir ki, "struktur təhlili kəmiyyət təsnifatından (toponimə daxil olan komponentlərin sayını müəyyən etməklə) başlamalı, sonra toponimlərin morfoloji və sintaktik xüsusiyyətləri nəzərə alınmalıdır" (14, s. 79). Digər tədqiqatda, demək olar ki, eyni yanaşmanın şahidi oluruq: "Struktur təhlilin əsasını iki əlamət təşkil edə bilər: a) toponimə daxil olan komponentlərin sayı; b) söz əmələ gətirmə üsulu" (15, s.39).

Toponimlərin quruluş xüsusiyyətləri baxımından təhlili göstərir ki, kəmiyyət xüsusiyyətlərinə uyğun olaraq toponimlərin üç əsas növü fərqləndirilir: sadə və ya bir sözdən ibarət, düzəltmə və mürəkkəb.

Sadə əsaslı toponimləri izah etmək çox zaman çətin deyil, adətən onların etimologiyası "üzdə" olur. Bu, xüsusilə adın məzmununun coğrafi obyektin relyefini birbaşa əks etdirdiyi, yerin təyinatını bildirdiyi hallarda müşahidə olunur. Eyni zamanda, elementlərini müəyyən etmək mümkün olmayan toponim növləri, yuxarıda qeyd edildiyi kimi, toponimiyanın ən qədim təbəqəsini təmsil edən kök toponimlərdir. İlk baxışda bu coğrafi adlar sadədir, sanki onlarda söz əmələ gətirən elementləri müəyyən etmək olar: sözün daxilində kök və şəkilçi elementləri ayırd etmək mümkündür, lakin bu gün bu formantların mahiyyəti ilkin təyinatına uyğun deyil, dəyişilmiş və sözün tərkibində daşlaşmışdır. Odur ki, bəzi leksemlərin tərkibində elementlər aydın şəkildə seçilsə də, onları sadə əsaslı toponimlər kimi təsnif etmək lazım gəlir. "Tiflis əyalətinin müfəssəl dəftəri"ndə işlənən toponimlərin bir qismi sadə quruluşa malikdir: Çələb, Çadır, Qılıc, Xan, Yanas, Qərib, Göl, Qala, Şikar, Vəli, Qut, Çinar, Məlik, Şiraz, Dərə, Amir və s. Sadə əsaslı toponimik vahidlər coğrafi nomenklaturanın ən qədim təbəqələrindən hesab olunur. Buna görə də sadə əsasa malik olan ayrı-ayrı coğrafi adların mənasını yalnız dilin dialektlərinin və ya yaxın qohum dillərin məlumatlarını nəzərə almaqla öyrənmək mümkündür. Çox vaxt arxaik təbiətinə və fonetik mənşəyinə görə belə adlar şərh olunmamış qalır. Dilin leksik tərkibini zənginləşdirən ən məhsuldar vasitə olan və söz yaradıcılığının kök elementini təşkil edən sadə leksemlərdən ibarət

*Azərbaycan Milli Elmlər Akademiyasi M. Füzuli adına Əlyazmalar Institutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri № 1, 2024*
*Səh. 108-114*
https://doi.org/10.59849/2224-9257.2024.1.108

toponim təbəqəsi sözyaradıcı vasitələrin köməyi ilə yeni formaların yaradılması üçün əsas rolunu oynayır.

Toponimlərin böyük əksəriyyəti törəmə və mürəkkəb quruluşa malikdir. Mürəkkəb toponimlərdən danışarkən həm faktiki mürəkkəb adları, həm də söz birləşmələrini nəzərdə tuturuq, belə ki, "toponimik sistemin intensiv inkişafı və zənginləşdiyi bu dövrdə söz birləşmələri və mürəkkəb toponimlər arasında dəqiq sərhəd çəkmək hələ də mümkün deyil" (12, s.137). Xüsusi ədəbiyyatda törəmə toponimlər daha sonrakı dövrə aid edilir (13, s. 323). Təhlil olunan materialda strukturca sadə, yalnız bir əsasdan ibarət olan toponimlər nisbətən azdır. Mürəkkəb toponimlərin çox hissəsini toponim-söz birləşmələri təşkil edir.

"Tiflis əyalətinin müfəssəl dəftəri"ndə işlənən toponimlərin bir qismi tərkibində müxtəlif şəkilçilər olan düzəltmə toponimlərdir:

-xana: Bəzirxana, Başxana

-çu: Quşçu, Dəmirçi, Carçı, Çataqçı, Qapıçı, Qazançı, Altunçular

-abad: Camalabad, Şəmsabad

-lı: Armudlu, Kəmərli, Çıraqlı, Şabanlı, Mollalı, İslambəyli, Dəyirli, Peykanlı, Kürdlü, Ağalı, Xanpaşalı, Əmiryarlı, Dördcanlı, Şahnəzərli, Cudaquşlu, Vəyəlli, Kəsəmənli, Salehlili, Qazaxlı İsmayıl, Pirili, Ağaxan Kəsəmənli, Nigarlı, Qurdboğazlı, Qılıclı Pirəlili, Qarasəkili, İshaqlı, Həsənxocalı, Qara Xəlifəli, Qaramanlı, Mirili, Müsüslü, Fəxrəli, Qızılhacılı, Xəlifəli, Armudlu, Boğazcılı, Qızılhacılı, Tərxanlı, Ağalı, Baldırıqanlı, Pirəlili, Çaxmaxlı, Heydərli.

-lar: Çavuşlar, Salehlər, Daş Salehlər, Dəmirçilər, Çanğlar, Dərvişlər, Altunçular, Kosalar, Qaralar, Qaraçılar, Kosalar.

Qeyd edək ki, toponimlər sistemində cəm şəkilçisi ilə əmələ gələn coğrafi adlar xüsusi yer tutur və müəyyən çəkiyə malik olması ilə diqqət çəkir.

-cıq: Dalmacıq, Dəryacıq.

-lıq: Zoğallıq, Qaymaqlıq, Almalıq, Qozluq

-laq: Qışlaq

-dink: Vadink, Qaradink

-vank: Cücəvank

Göründüyü kimi, bəzi şəkilçilər məhsuldarlığı ilə diqqət çəksə də (-lı, -lar, -lıq, -çu), digərləri bir neçə toponimin tərkibində işlənmişdir (-vank, -dink, -laq). Qeyd olunan şəkilçilərin ümumiyyətlə dildə derivativ imkanlarını nəzərdən keçirsək, bu göstəricinin yalnız toponimlər üçün yox, bütövlükdə Azərbaycan dilində sözyaratma prosesi üçün səciyyəvi olduğunu söyləmək olar.

Digər qrup toponimlər struktur baxımdan bir vahiddən ibarət olsa da, quruluşca mürəkkəb təbiətə malikdir. Mürəkkəb quruluşa malik toponimlərin tərkibində ikinci element semantik baxımdan ərazi quruluşu, relyef və ya digər məlumat səciyyəli məqamla bağlı olur və bir çox hallarda bir neçə toponimin tərkibində işlənməklə toponimlər qrupunun meydana çıxmasına səbəb olur:

Azərbaycan Milli Elmlər Akademiyasi M. Füzuli adına Əlyazmalar Institutu, ISSN 2224-9257
Filologiya məsələləri № 1, 2024
Səh. 108-114
https://doi.org/10.59849/2224-9257.2024.1.108




+bulaq: Qarabulaq, Məlikbulaq, Qırxbulaq, Soyuqbulaq, Ağbulaq, Bulaq, İsmibulaq.
+qamış: Sarıqamış, Qamışgöl
+qala: Qala, Şəkərqala
+qaya: Gəlinqaya, Mollaqaya, Laçınqayası, İncəqaya, Nəzərqaya, Karqaya
+dərə: Qaranlıdərə, Gözəldərə, Dərə
+dağ: Qızıldağ
+daş: Daş Salehlər, Qızıldaş, Qaşqadaşı
+kilsə: Qoşakilsə, Boğazkilsə, Kiçik Boğazkilsə, Ağkilsə, Dəlikilsə
+kənd: Xaçkəndi, Ağcakəndi
+bəy: İslambəyli, Əlibəy, Qulubəy, Salmanbəy, Yaşbəy
+şah: Şahqulu, Məlikşah, Şahnəzərli, Şahrux
+keşiş: Korkeşiş, Sarıkeşiş
+qara: Qarahəmzə, Qarabulaq, Qaralar, Qarasəkili, Qaramanlı, Qaraqumaş
+su: Qurumsu, Yarsu, Xassu, Ağsu.

Nümunələrdən göründüyü kimi, bulaq, qamış, qala, qaya, daş, su kimi leksemlər müxtəlif sözlərlə birləşərək toponimin formalaşmasında iştirak etmişdir. "Tiflis əyalətinin müfəssəl dəftəri"ndə işlənən bu tipli toponimlərin təhlili əsasında onların aşağıdakı modellərini müəyyən etmək mümkündür:

İsim+isim (Məlikbulaq, Gəlinqaya)
Sifət+isim (Gözəldərə, Xassu, Sarıqamış)
Say+ isim: (Qırxbulaq, Üçkilsə, Üçkol).

Kompleks toponimlər iki sözün birləşməsindən yaranır, struktur baxımdan söz birləşməsi və ya mürəkkəb ad formasındadır: Kəsəmən Qulubəy, Abdulla Altunçular, Qazaxlı İsmayıl, Ağaxan Kəsəmənli. Göründüyü kimi, bu birləşmələrin tərəflərindən biri antroponimdir.

Tərkibində "böyük", "kiçik", "aşağı", "yuxarı" sözləri olan toponimləri də kompleks toponimlər qrupuna daxil etmək olar: Kiçik Ceyran, Kiçik Xocatürk,

*Azərbaycan Milli Elmlər Akademiyasi M. Füzuli adına Əlyazmalar Institutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri № 1, 2024*
*Səh. 108-114*
https://doi.org/10.59849/2224-9257.2024.1.108

Böyük Xocatürk, Kiçik Kosalar, Böyük Bəxtiyar, Kiçik Ayyaran, Böyük Ayyaran, Aşağı Almalıq, Yuxarı Almalıq, Kiçik Bəxtiyar, Kiçik Boğazkilsə və s.

"Tiflis əyalətinin müfəssəl dəftəri"ndə işlənən kompleks toponimlərin təhlili aşağıdakı söz əmələgəlmə və morfoloji modelləri müəyyən etmək üçün əsas verir:

1. İsim + isim: (Molla Abdulla)
2. Zərf + ad (Aşağı Almalıq, Yuxarı Almalıq)
3. Sifət + isim (Böyük Ayyaran, Kiçik Boğazkilsə)

Mürəkkəb toponimlərin əsas xüsusiyyətlərindən birinin onların iki elementə bölünməsi, onlardan birinin toponimik növün (sinif) açar sözü və ya göstəricisi olduğunu qeyd edən B. A. Serebrennikovun fikri (3, s.37), digər tədqiqatlarda fərqli terminologiya ilə – toponimik göstərici və ya marker (16, s.17) adlandırılır ki, bu element təqdim olunan strukturun təsviri hissəsi, fərqləndirici əlaməti hesab oluna bilər. Bir çox hallarda toponimik növün açar sözü kimi çıxış edən element toponimləri qruplaşdırmaq üçün başlıca meyar kimi götürülür.

"Tiflis əyalətinin müfəssəl dəftəri"ndə işlənən toponimlərin struktur baxımdan təhlili və təsnifatı bunu söyləməyə əsas verir ki, burada struktur baxımdan toponimlərin dörd növünü fərqləndirmək mümkündür: sadə (Göl), düzəltmə (Zoğallıq, Qışlaq), kompleks-söz (Korkeşiş, Dəlikilsə) və kompleks birləşmələr (Qazaxlı İsmayıl, Ağaxan Kəsəmənli). Nümunələrə əsasən deyə bilərik ki, mürəkkəb toponimlərin komponentləri arasında ümumi coğrafi termin və adın atributiv hissəsindən ibarət iki əsaslı struktura meyil özünü göstərir ki, bu da toponimlərin daxili semantikasının formalaşma prosesinin əks olunması ilə bağlı hal kimi dəyərləndirilə bilər.

**Ədəbiyyat**:

1. Цветкова Е.В. К вопросу о структурно-словообразовательной характеристике топонимов //Вестник КГУ им. Н.А. Некрасова. No 4, 2012.
2. Топурия В. Т. Заметки по словообразованию в картельских языках // Известия ИЯИМК им. акад. М.Я. Марра. V–VI. Тбилиси, 1940.
3. Серебренников Б. А. О методах изучения топонимических сигналов // ВЯ. № 6, 1959. С. 36–50.
4. Морозова М. Н. Вопросы топонимики. М.: Изд. МГУ, 1969.
5. Суперанская А. В. Что такое топонимика? М.: Наука, 1985.
6. Суперанская А. В. Как вас зовут? Где вы живете? М.: Наука, 1964.
7. Подольская Н. В. Словарь русской ономастической терминологии М.: Наука, 1988.
8. Подольская Н. В. Типовые восточнославянские топоосновы: словообразовательный анализ. М., 1983.
9. Селищев А. М. Из старой и новой топонимии // Селищев А. М. Избранные труды. М., 1968. С. 45–96.
10. Никонов В. А. География фамилий. М.: Наука, 1962.

*Azərbaycan Milli Elmlər Akademiyasi M. Füzuli adına Əlyazmalar Institutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri № 1, 2024*
*Səh. 108-114*
https://doi.org/10.59849/2224-9257.2024.1.108

11. Матей Л. П. Эволюция и вариантности экономики Свердловской области: дис. канд. филол. наук. Свердловск, 1991.

12. Мельникова Т. Н. Древнеанглийские географические науки: дисс. канд. филол. наук. Л., 1986.

13. Никонов В. А. География русских суффиксов // Ономастика. 1959. № 9. С. 26–48.

14. Муминов Т.Г. Структурно-словообразовательные и семантические типы татарской микротопонимики юго-западной части Тюменской области // Вопросы топономастики. Вып. 4. Свердловск, 1970. С. 78–83.

15. Головина Э. Д. Номинация линейных водных объектов в бассейне реки Моломы // Вопросы топономастики / МВ и ССО РСФСР, Урал. гос. ун-т им. Горького А.М. Свердловск: [УрГУ], 1970. Вып. 4. с. 34–44.

16. Теория и методика ономастических исследований / отв. ред. А. П. Непокупный. М.: Наука, 1986.

## STRUCTURAL ANALYSIS AND DERIVATIVE POSSIBILITIES OF TOPONYMS USED IN THE "DETAILED REGISTRY OF TBILISI PROVINCE"

**SUMMARY**

In the article, toponyms found in the "Detailed notebook of Tbilisi province" are analyzed from a structural point of view. On the basis of the material, the analysis should be carried out taking into account the separate morphological and syntactic features that appear taking into account the production capabilities of the language, derivative features. According to the results of the research, some of the toponyms used in the "Detailed Book of Tbilisi Province" have a simple structure: Chelab, Chadir, Kilic, Khan, Yanas, Gharib, Gol, Gala, Shikar, Veli, Gut, Chinar, Malik, Shiraz, Dara, Amir. and so on. There are relatively few toponyms that are structurally simple and consist of only one base in the analyzed material. Some of the toponyms used in the "Detailed Book of Tbilisi Province" are modified toponyms with various suffixes: Bazirkhana, Bashkhana, Gushchu, Demirchi, Jarchi, Chatagchi, Amudlu, Kemarli, Chiragli, etc. It should be noted that in the system of toponyms, geographical names formed with a plural suffix occupy a special place and attract attention due to the fact that they have a certain weight. Although some suffixes are notable for their productivity (-lı, -lar, -lik, -chu), others have been used in several toponyms (-vank, -dink, -laq). Another group of toponyms is structurally one unit, but structurally complex. In toponyms with a complex structure, the second element is semantically related to the territorial structure, relief or other characteristic information, and in many cases, it is used in several toponyms and leads to the emergence of a group of toponyms.

**Rəyçi: filologiya elmləri doktoru, professor Nadir Məmmədli**